

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 108 (23.520)

9 iyul 2020-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvanda yeni Günəş Elektrik Stansiyası istifadəyə verilib





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə müasirlikdir, yenilikdir, enerji cəhətdən təmiz texnologiyadır. Bu, bizim gələcəyə baxışımızdır”.***

Əlverişli coğrafi mövqeyi və iqlim şəraiti muxtar respublikada alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə geniş imkanlar açır. Son illər yeni su və günəş elektrik stansiyalarının tikilməsi enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə vermişdir. Xüsusilə “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq muxtar respublikada bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir.

İyulun 8-də Kəngərli rayonunda 3 meqavat gücündə yeni Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev məlumat verərək demişdir ki, yeni Günəş Elektrik Stansiyasının qurulması üçün 9 avqust 2019-cu il tarixdə İsveçrənin “Pure





Energy Development” SARL şirkəti ilə Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti arasında müqavilə imzalanmışdır. Kənd təsərrüfatına yararsız 5 hektar ərazidə yerləşən stansiyada tikinti-quraşdırma işləri qısa müddətdə və yüksək keyfiyyətlə aparılmış, hər birinin gücü 320 vatt olan 9416 “PERC” tipli müasir “şüşə-şüşə” formalı günəş panelləri, hər birinin gücü 50 kilovat olan 61 invertor, müasir tip kommutasiya aparatları və digər elektrik avadanlıqları ilə təmin olunmuş 3 ədəd 35/0,4 kilovoltluq transformator yarımstansiyası, 1 ədəd 35 kilovoltluq qapalı paylayıcı yarımstansiya quraşdırılmışdır. Stansiyada alçaq və yüksəkgərginlikli kabel xətləri, eləcə də rabitə, müşahidə və idarəetmə sistemi üçün optik kabel xətləri çəkilmiş, ərazi çəpərlənmiş, ən müasir siqnalizasiya və videomüşahidə qurğuları ilə təmin olunmuşdur. Müasir avadanlıqlarla təchiz olunan stansiyada elektrik enerjisi istehlakçılara itkisiz çatdırılacaqdır.

Yeni quraşdırılmış Günəş Elektrik Stansiyasının istismara verilməsi ilə Naxçıvan Muxtar Respublikasında Günəş Elektrik stansiyalarının illik istehsal gücü 40,5 milyon kilovat-saata çatdırılmışdır.

Namiq Paşayev göstərilən qayğıya və yaradılan şəraitə görə muxtar respublika energetikləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 3 meqavatlıq yeni Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi münasibətilə istehlakçıları təbrik etmiş, stansiyanın qurulmasında əməyi olanlara təşəkkür edərək demişdir: Muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunması sahəsində mühüm işlər görülmüşdür. Ümummilli liderimiz Heydər Əliyev muxtar respublikaya rəhbərlik etdiyi dövrdən başlayaraq Naxçıvanda elektrik stansiyalarının qurulması işinə diqqətlə yanaşmış, 1992-ci ildə Qaz-Turbin Elektrik Stansiyası istifadəyə verilmişdir. Ondan sonrakı dövrdə muxtar respublikanın elektrik enerjisinə olan tələbatı qardaş Türkiyə Respublikasından çəkilmiş elektrik xətti vasitəsilə ödənilirdi. Ölkə Prezidentinin Sərəncamları ilə muxtar respublikada 87 meqavatlıq Modul Elektrik Stansiyası, yeni su və günəş elektrik stansiyaları tikilmiş və nəticədə, muxtar respublikanın enerji təhlükəsizliyi tam təmin olunmuşdur.



Ali Məclisin Sədri demişdir: Bu gün muxtar respublikada qarşıda duran əsas məsələ enerji təminatında bərpa olunan enerji mənbələrindən istifadəyə üstünlük verməkdir. Görülən işlərin nəticəsidir ki, artıq muxtar respublikada elektrik enerjisinə olan tələbat yerli istehsal hesabına ödənilməklə yanaşı, həm də ixrac imkanları yaranmışdır. Xüsusilə su və günəş elektrik stansiyalarından alınmış enerji ilə təminata üstünlük verilir ki, bu da Dövlət Energetika Xidmətinin gəlirlərini artırır. Hazırda muxtar respublikada elektrik enerjisinə olan tələbatın 55 faizi bərpa olunan enerji mənbələri hesabına ödənilir. İstifadəyə verilən günəş elektrik stansiyalarının ümumi gücü 27 meqavata bərabərdir. Ötən il Kəngərli rayonu ərazisində 2 meqavatlıq Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir. Bu gün isə rayonda 3 meqavat gücündə yeni Günəş Elektrik Stansiyası fəaliyyətə başlayır. Kəngərli rayonunda istifadəyə verilən günəş elektrik stansiyaları rayon üzrə abonentlərin 32 faizə yaxınını elektrik enerjisi ilə təmin etmək gücündədir.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikada enerji təhlükəsizliyi sahəsində qarşıda duran əsas vəzifə dünya dövlətlərinin də xüsusi diqqət yetirdiyi bərpa olunan enerji ilə təminat işidir. Ona görə də muxtar respublikada günəş enerjisindən, eləcə də mövcud hidroenerji potensialından səmərəli istifadə olunur, dağ çaylarında yeni su elektrik stansiyaları tikilir. Hazırda Ordubad və Tivi Su Elektrik stansiyalarının tikintisi davam etdirilir. Bu stansiyalar istifadəyə verildikdən sonra muxtar respublikanın elektrik enerjisi tələbatının 90 faizə yaxını bərpa olunan enerji mənbələri hesabına təmin olunacaqdır. Yeni stansiyaların qurulması həm də mütəxəssis hazırlığını zəruri edir. Naxçıvan Dövlət Universitetində energetika sahəsində kadr təminatını ödəmək üçün müvafiq ixtisas açılmış, həmin ixtisas Dövlət Energetika Xidmətinin hamiliyinə verilmişdir. Artıq o ixtisası bitirən məzunlar Dövlət Energetika Xidmətində müxtəlif sahələrdə işlə təmin olunur, yeni qurulan stansiyaları yerli mütəxəssislər idarə edirlər.

“Yeni qurulan elektrik stansiyaları ilə yanaşı, bu sahədə yetişən yerli mütəxəssislərimiz də bizim sərvətimizdir”, – deyən Ali Məclisin Sədri Dövlət Energetika Xidməti tərəfindən mütəxəssis hazırlığına bundan sonra da diqqət

Ardı 2-ci səhifədə



yetirilməsi və qurulanlardan səmərəli istifadə olunması barədə tapşırıqlar vermişdir.

Sonra Ali Məclisin Sədri açılışı bildirən lenti kəsmişdir.

Tədbirə onlayn qoşulan İsveçrənin "Pure Energy Development" SARL şirkətinin icraçı direktoru Mişel Kalerami demişdir: "Şirkətimizə güvəndiyiniz və bizi seçdiyiniz üçün minnətdarlıq edirik. Naxçıvan regionda alternativ enerji istehsalı sahəsində liderliyini qoruyur. Təbii ki, bu qürurun bir parçası olmaq bizim üçün də şərəfdir. Ümid edirəm ki, ən qısa zamanda özümü sakini hiss etdiyim Naxçıvana yenidən gələcəyəm".

Ali Məclisin Sədri İsveçrənin "Pure Energy Development" SARL şirkəti ilə əməkdaşlıqdan məmnunluğunu bildirmiş, gələcəkdə də Naxçıvanda yeni günəş və külək elektrik stansiyalarının tikintisinin davam etdiriləcəyini diqqətə çatdırmışdır.

Daha sonra Dövlət Energetika Xidmətinə yeni avtomobil və texnikalar təqdim olunmuşdur.

Bildirilmişdir ki, xidmət üçün 1 ədəd "Hyundai İoniq" markalı elektriklə işləyən avtomobil, 4 ədəd "Qazel" markalı avtomobil, 1 ədəd "BKM-317A" markalı yerqazan qurğu və 2 ədəd xüsusi təyinatlı "Ford" markalı avtomobil alınmışdır. Yeni texnika və avtomobillər xidmətdə işin səmərəliliyinin artırılmasına imkan verəcəkdir. Elektriklə işləyən "Hyundai İoniq" markalı avtomobil tam dolu batareya ilə 200 kilometr məsafə qətetmə imkanına malikdir.

Ali Məclisin Sədri avtomobil və texnikalara baxmış, müvafiq tapşırıq və tövsiyələr vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

*9 iyul Azərbaycan diplomatlarının peşə bayramıdır*

# Uğurlu xarici siyasət kursu güclü dövlətçiliyin qarantıdır

***Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 24 avqust tarixli Sərəncamı ilə hər il 9 iyul tarixi Azərbaycan Respublikası diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı kimi qeyd edilir.***

Müstəqilliyimiz bərpa olunduqdan sonra digər sahələrdə olduğu kimi, diplomatiya sahəsində də əldə edilmiş uğurlar ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Böyük dövlət xadiminin hakimiyyətə qayıdışı ilə ölkəmizin tarazlaşdırılmış xarici siyasətinin həyata keçirilməsi Azərbaycanı beynəlxalq birliyin nüfuzlu üzvünə çevirmişdir. Ulu öndər Heydər Əliyev tərəfindən tarixi təcrübə və yerləşdiyimiz regionun geosiyasi çətinlikləri kimi amillər nəzərə alınaraq, Azərbaycanın çoxistiqamətli və tarazlaşdırılmış xarici siyasət strategiyası müəyyən edilmişdir. Məhz onun təşəbbüsü və rəhbərliyi altında bu siyasət özünün mahiyyəti və məzmunu etibarilə elmi əsasda dərindən düşünülmüş konsepsiyaya söykənərək hazırlanmaqla bərabər, həm də siyasi səriştə ilə ardıcıl olaraq həyata keçirilməyə başlandı. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: ***"Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətidir, Azərbaycanın sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır, elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı dünya miqyasında bir müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin".***

Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu, Azərbaycanın milli maraqlarına əsaslanan çoxistiqamətli və dinamik xarici siyasət bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizin inkişafının yeni mərhələsinə, dövrün çağırış və tələblərinə uyğun olaraq yeni strateji hədəflər müəyyən olunur və həyata keçirilir. Azərbaycan ikitərəfli və çoxtərəfli formatlarda BMT-nin Təhlükəsizlik Şurası və digər strukturları, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, NATO, İqtisadi Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Demokratiya və İnkişaf Naminə Təşkilat, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Körfəz Əməkdaşlıq Şurası, Afrika İttifaqı, Ərəb Dövlətləri Liqası, OPEC+ və digər beynəlxalq və regional təşkilatlarla fəal əməkdaşlığını davam etdirir. Bir sıra hallarda məhz Azərbaycanın irəli sürdüyü təkliflər və təşəbbüslər bu təşkilatlar çərçivəsində əməkdaşlığın yeni istiqamətlərinin müəyyən edilməsində və səmərəliliyin artırılmasında mühüm rol oynayır.

"Bakı prosesi", Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Bakı Humanitar Forumu, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Cənub Qaz Dəhlizi, eləcə də onun tərkib hissəsi olan Cənubi Qafqaz boru kəməri, TANAP və TAP kimi beynəlxalq layihələr, o cümlədən bir sıra yaxın dövlətlərlə üçtərəfli və hətta dördtərəfli əməkdaşlıq formatları Azərbaycanın təşəbbüsü və yaxud dəstəyi ilə reallığa qovuşmuşdur. Hazırda Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzrə işlərin yekunlaşdırılması davam etdirilməkdədir. Bu gün Azərbaycanın Cənubi Qafqazın aparıcı dövlətinə və bir sıra beynəlxalq enerji-kommunikasiya layihələrinin mərkəzinə çevrilməsi və Avropanın enerji təhlükəsizliyində mühüm rol oynaması məhz dövlətimizin başçısı cənab İlham Əliyevin uğurlu diplomatiyasının nəticələridir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Azərbaycan xarici siyasət sahəsində böyük uğurlar əldə edib. Biz beynəlxalq arenada öz milli maraqlarımızı bundan sonra da müdafiə edəcəyik. Biz bu gün dünyada çox böyük hörmətə malik olan ölkə kimi tanınırıq. Bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı artır".***



Azərbaycan öz xarici siyasətində multikulturalizm, mədəniyyətlər və dinlərarası dialoqun inkişafına nail olması, humanitar və mədəni diplomatiya kursumuzun davam etdirilməsi, Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə hüquqlarının müdafiəsi və konsulluq dəstəyinin göstərilməsi, dünya azərbaycanlıları ilə əlaqələrin və diaspor fəaliyyətinin inkişaf etdirilməsi kimi məsələlərə xüsusi əhəmiyyət verir.

Azərbaycanda ölkə Prezidenti tərəfindən həyata keçirilən uğurlu xarici siyasət xətti Naxçıvan Muxtar Respublikasına da öz müsbət təsirini göstərmiş, muxtar respublikanın xarici əlaqələri genişlənmişdir. Muxtar respublika ilə əlaqə qurmaq istəyən dövlətlərin, beynəlxalq təşkilatların, həmçinin muxtar respublikaya səfər edən yüksək səviyyəli nümayəndə heyətlərinin sayı ildən-ilə artır, həyata keçirilən islahatlar nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən digər dövlətlərə və onların muxtar qurumlarına nümunə kimi göstərilir.

Dövlətimizin maraqlarının və xalqımızın milli varlığının qorunmasında diplomatiyanın xüsusi əhəmiyyət daşıdığını qeyd edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Hər bir ölkənin diplomatiyası o ölkənin qürur mənbəyidir. Milli dövlətçiliyi və dövlət sərhədləri olan ölkələr istər-istəməz beynəlxalq münasibətlər sisteminin subyektinə çevrilirlər. Bu mənada diplomatiya dövlətçiliklə birbaşa bağlıdır və ondan kənarda ölkələrarası münasibətlər mümkün deyil. Diplomatiya sıravi peşələrdən deyil. O, xalqın milli və siyasi maraqlarına birbaşa təsir göstərən fəaliyyət sahəsidir. Yaxşı işlənmiş və əsaslandırılmış diplomatiyası olmayan dövlətlər siyasi səhnədən silinməyə məhkumdurlar".***

Ötən dövrdə blokadanın yaratdığı əsas problemlər müvəffəqiyyətlə həll edilmiş, nəqliyyat və kommunikasiya sahəsindəki çətinliklər aradan qaldırılmış, İran və Türkiyə ilə əlaqələr qurulmuşdur. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən həyata keçirilən uğurlu siyasət nəticəsində digər dövlətlər və beynəlxalq təşkilatlarla da qarşılıqlı faydalı əməkdaşlıq üçün zəmin yaranmışdır. Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Görüşünün, Azərbaycan, Türkiyə və İran Xarici İşlər nazirlərinin, eləcə də türkdilli ölkələrin gömrük xidməti rəhbərlərinin, Azərbaycan, Türkiyə və Gürcüstan Müdafiə nazirlərinin üçtərəfli görüşlərinin Naxçıvanda keçirilməsi, Türkdilli Ölkələrin Parlament Assambleyası baş katibinin Naxçıvana səfər etməsi, Naxçıvanda Avropa Günlərinin keçirilməsi, Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi muxtar respublikanın xarici siyasət kontekstində əhəmiyyətinin mühüm göstəricisidir.

Azərbaycanın xarici siyasətdə əldə etdiyi uğurlar fonunda Naxçıvan Muxtar Respublikasının da xarici əlaqələri sürətlə genişlənir. Xatırladaq ki, hələ ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan zaman Azərbaycanın həmsərhəd və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla iqtisadi, ticarət, elmi-texniki və mədəni münasibətlərinin genişlənməsinə, Naxçıvan Muxtar Respublikasının da bu münasibətlərdə iştirakına mühüm diqqət yetirirdi. Bu siyasətin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun təşəbbüsü ilə 2005-ci ilin 31 oktyabrında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin yaradılması haqqında Fərman imzalamışdır. İdarənin yaradılması ilə Azərbaycanın xarici əlaqələrində muxtar respublikanın iştirakı daha da genişlənmiş, Azərbaycan Respublikasının vahid xarici siyasi xəttinin həyata keçirilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin müvafiq vəzifə və funksiyalarının Naxçıvan Muxtar Respublikasında fasiləsiz və ardıcıl həyata keçirilməsi təmin olunmuşdur. İdarə yarandığı gündən öz səlahiyyətləri daxilində Naxçıvan Muxtar Respublikasını xarici dövlətlər və beynəlxalq təşkilatlarla münasibətlərdə təmsil edir, Naxçıvan Muxtar Respublikasının səlahiyyətləri daxilində bağladığı müqavilə layihələrinin hazırlanmasını, danışıqların hazırlanması və aparılmasını, muxtar respublikada dövlət protokolunun həyata keçirilməsini təmin edir, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən xarici dövlətlərin konsulluqlarının, beynəlxalq təşkilatların nümayəndəliklərinin, eləcə də muxtar diyara səfər edən xarici nümayəndə heyətlərinin dövlət hakimiyyəti orqanları ilə münasibətlərini və fəaliyyətlərini əlaqələndirir. Bundan başqa, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin Naxçıvan Beynəlxalq Hava Limanında viza sektoru fəaliyyət göstərir.

Hazırda idarənin işinin səmərəli təşkili üçün kadrların seçilməsi və onların peşəkarlıq qabiliyyətlərinin yüksəldilməsinə xüsusi diqqət yetirilir. İdarədə fəaliyyət göstərən diplomatlar mütəmadi olaraq ADA Universitetində və bir çox xarici ölkələrdə təşkil olunmuş diplomatik kurslarda iştirak edir, təcrübə, bilik və bacarıqlarını artırırlar. 2019-cu ildə əməkdaşlardan 1-i Türkmənistanda, 1-i Çində, 1-i Malayziyada, 1-i Hindistanda, 1-i Yaponiyada, 2-si Latviyada, 1-i isə Estoniyada təşkil olunmuş ixtisasartırma kurslarında iştirak etmişlər. Ötən dövrlərdə idarədən Azərbaycanın xaricdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərinə 26 əməkdaş ezam olunmuşdur.

*Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin kollektivi ölkəmizin siyasi maraqlarının qorunmasında bundan sonra da yorulmadan fəaliyyət göstərəcəkdir.*

***Azərbaycan Respublikası***
***Xarici İşlər Nazirliyinin***
***Naxçıvan Muxtar***
***Respublikasındakı İdarəsi***

# Aqrar sahədə işlər davam etdirilir

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi 2020-ci ilin iyun ayında da fəaliyyətini nazirliyin illik iş planının və Dövlət proqramlarının icrası istiqamətində həyata keçirmişdir. İyun ayında taxıl biçininin başlaması ilə əlaqədar nazirlikdə yaradılmış operativ qərargah vasitəsilə biçinin gedişinə nəzarət edilir. Nazirlik əməkdaşları tərəfindən muxtar respublikada taxıl biçininin qısa müddətdə başa çatdırılması, biçin zamanı baş verə biləcək fəsadların tez bir vaxtda aradan qaldırılması barədə sahibkarlara və ailə təsərrüfatı üzvlərinə maarifləndirici məsləhətlər verilmişdir.

Ötən ay meyvə və üzüm bağlarında, bostan-tərəvəz sahələrində xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirlərinin aparılması istiqamətində maarifləndirmə tədbirləri davam etdirilmişdir. Ümumilikdə, muxtar respublika üzrə 475 hektar yonca sahəsində fitanomus zərərvericisinə, 966 hektar taxıl, həmçinin cavan meyvə bağlarında siçan və siçanabənzər gəmiricilərə, 66 hektar kartof sahəsində Kolorado kartof böcəyinə, 7 min 321 hektar taxıl və 191 hektar tərəvəz sahəsində alaq otlarına, 136 hektar bostan və tərəvəz sahələrində, eləcə də 27 hektar sahəni əhatə edən bəzək bitkilərinin zərərverici və xəstəliklərinə qarşı kimyəvi mübarizə tədbirlərinin əhəmiyyəti təsərrüfat sahiblərinə bildirilmişdir. Həmçinin Babək rayonundan 6, Culfa rayonundan 2 təsərrüfat sahibinin müraciəti əsasında üzümlüklərində və meyvə bağlarında həyata keçirilən kompleks tədbirlərlə bağlı köməkliklər göstərilmiş, Babək və Şərur rayonlarından nazirliyə müraciət edən 12 təsərrüfat sahibinə tərəvəz əkinlərində mütərəqqi üsulların tətbiqinə dair lazımi tövsiyələr verilmişdir.

"Araz" Elm-İstehsalat Birliyinin Aqrokimya, torpaqşünaslıq və torpaqların kütləvi analizləri şöbəsinin əməkdaşları tərəfindən torpaq mülkiyyətçiləri və ailə təsərrüfatı başçıları tərəfindən gətirilən torpaq nümunələri analiz olunmuş, nəticələrə uyğun gübrə normaları hesablanaraq yazılı məlumatlar verilmişdir. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən gətirilmiş 2 çeşiddə 6 halda kompeze və azot gübrələri analiz olunaraq nəticələri haqqında məlumatlar aidiyyəti üzrə göndərilmişdir.

Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin mütəxəssisləri muxtar respublikanın müxtəlif ərazilərində müşahidələr aparmış, xəstəlik və zərərvericilərlə sirayətlənmiş sahələr müəyyən edilmişdir. Heyvandarlıqda mal-qaranın inkişaf etdirilməsi, onlara zoobaytar qaydalara uyğun qulluq edilməsi və cins tərkibinin yaxşılaşdırılması istiqamətində maarifləndirmə tədbirləri davam etdirilmiş, arı ailələrinin mərhələli şəkildə köçürülməsi və xəstəliklərinə qarşı profilaktik tədbirlərin aparılması məqsədilə arıçılarla görüşlər keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

Azərbaycan milli mətbuatı – 145

# Naxçıvanda mətbuat:

## ənənədən müasirliyə uğurlu inkişaf yolu

***Mətbuat hər bir xalqın mədəni intibahında, milli təfəkkür tərzinin və siyasi şüur səviyyəsinin formalaşmasında mühüm rol oynayan əsas ideoloji vasitədir. Bu mənada, ilk milli mətbuatımız "Əkinçi"nin ideya və məfkurəsi özündən çox-çox əvvəl doğulmuşdu. Böyük maarifpərvər ziyalı, "Əkinçi"nin naşiri Həsən bəy Zərdabi qəzet nəşri ideyası barədə sonralar yazırdı: "Hər kəsi çağırıram, gəlməyir, göstərirəm, görməyir, deyirəm, qanmayır. Axırda gördüm ki, onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa bir qeyri əlac yoxdur. Olmaz ki, mənim sözümü eşidənlərdən heç bir qanan olmasın! Necə ki, bir bulağın suyunun altına nə qədər bərk daş qoysan, bir neçə ildən sonra o su tökülməkdən o bərk daş mürur ilə əriyib deşilir, habelə söz də, ələlxüsus, doğru söz mürur ilə qanmazın başını deşib onun beyninə əsər edər".***

"Əkinçi"nin şüurlarda səpdiyi bu maarifçilik toxumundan cücərən, XX əsrin ilk anadilli qəzeti "Şərqi-Rus" isə böyük pedaqoq-publisist Məhəmməd Tağı Sidqinin təbirincə desək, qısa müddətdə millətin gənclərinin qaranlıq ürəklərində nur saçaraq bilik və mərifət çırağı kimi onları cəhalət çölündən səadət-xoşbəxtlik sarayına aparmışdır. "Şərqi-Rus"un çağırışlarından isə bütün Şərqdə ilk satirik, demokratik mətbuat orqanı olan "Molla Nəsrəddin" ərsəyə gəlmişdir. Bütövlükdə, jurnalın məramına çevrilən "Vətən, Vətən, Vətən; dil, dil, dil; millət, millət, millət!" şüarı əsrlər sonra belə, bugünkü jurnalistikamız üçün də başlıca sənət prinsipləri, əsas qayədir. Azərbaycan adını ilk dəfə mətbu şəkildə əbədiləşdirən, Şərqdə ilk müstəqil respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi dövlət və akademik qəzeti "Azərbaycan" isə XX əsrin əvvəllərindəki müstəqil dövlət quruculuğu prosesinin mətbu inikası kimi tarixə düşmüşdür. Totalitar sovet rejimi dövründə belə, millilik, vətənpərvərlik ideyalarının tərənnümünə çalışan milli mətbuatımız müstəqillik illərində özünün demokratik inkişaf yoluna qədəm qoymuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında" 2020-ci il 30 iyun tarixli Sərəncamda müasir mətbuatın inkişaf yoluna belə siyasi qiymət vermişdir: ***"Ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycanda müasir kütləvi informasiya vasitələrinin formalaşması və inkişafı üçün geniş imkanlar yaranmışdır. 1993-cü ildən başlayaraq ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən və cəmiyyət həyatının bütün sahələrini əhatə edən köklü islahatlar nəticəsində ölkədə senzura, söz və məlumat azadlığını məhdudlaşdıran digər süni maneələr aradan qaldırılmış, medianın fəaliyyətini tənzimləyən mütərəqqi qanunvericilik bazası yaradılmış, onun problemlərinin həlli, iqtisadi müstəqilliyinin gücləndirilməsi, vətəndaş cəmiyyəti quruculuğunda rolunun yüksəldilməsi məqsədilə ardıcıl tədbirlər görülmüşdür. Hazırda həyata keçirilən sistemli islahatlar, şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan sosial innovasiyaların tətbiqi, idarəetmə sahəsində baş verən keyfiyyət dəyişiklikləri, ictimai nəzarət və siyasi dialoq mühitinin genişləndirilməsi dinamik inkişaf edən Azərbaycanda müasir dövlət quruculuğunun başlıca istiqamətlərini təşkil edir".***

Qədim və zəngin maarifçilik ənənələrinə malik Naxçıvanda mətbuatın yaranması da milli mədəniyyət və ictimai fikir tariximizdə mühüm mərhələ təşkil edir. 1921-ci ilin noyabrında Gənclər İttifaqının orqanı olan "Cavanlar həyatı" qəzetinin nəşrə başlaması ilə Naxçıvanda qəzetçiliyin təməli qoyulmuş, hələ XIX əsrin 90-cı illərindən pərvəriş tapan qəzet nəşr etdirmək ideyası, nəhayət ki, gerçəyə çevrilmişdir. Vərəqə şəklində çap olunan "Cavanlar həyatı" qəzeti iki aya yaxın müddət ərzində fəaliyyət göstərmiş, 1921-ci ilin dekabr ayından etibarən Naxçıvanda "Füqəra səsi" adlı yeni bir qəzet nəşr olunmuşdur. Bu mətbu orqanlar 1922-ci ilin aprel ayından nəşr edilməyə başlayan "Şərq qapısı" qəzetinin sələfləri kimi öz elmi təsdiqini tapmışdır. "Şərq qapısı" 1930-cu ilədək ərəb, 1930-40-cı illərdə latın, 1940-cı ildən 2001-ci ilin iyununadək kiril əlifbası ilə çap olunmuşdur. Həmin dövrdən latın qrafikalı əlifba ilə nəşr edilir. Qəzet 1979-1989-cu illərdə "Sovet Naxçıvanı" adı ilə çıxarılmışdır ki, bu da "Şərq qapısı" adına Şərq ölkələrinə, türk-müsəlman dünyasına meyillilik kimi siyasi don geyindiriləcəyindən ehtiyat edilməsi ilə əlaqədardır.

1937-38-ci illərin məşum repressiya tələtümündən keçən "Şərq qapısı" İkinci Dünya müharibəsi illərində alman faşizminə qarşı alovlu ideoloji mübarizə silahına çevrilmiş, vətənpərvərlik ruhunda yazıları, ön və arxa cəbhə arasında mənəvi körpü yaratması ilə fəaliyyətini doğrultmuşdur. Müharibədən sonrakı dövrlərdə "Şərq qapısı" qəzeti tarixi yolunu davam etdirərək ictimai-siyasi, ədəbi-mədəni proseslərin işıqlandırılmasına ciddi diqqət yetirmişdir.

XX əsrin 70-ci illərində – ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana siyasi rəhbərliyə gəlişindən sonra milli ideologiyanın inkişafı, mətbuata göstərilən qayğı "Şərq qapısı"nın da fəaliyyətinə əhəmiyyətli təsir göstərmişdir. Ötən əsrin 70-80-ci illərində "Şərq qapısı" qəzetinin gündəlik və böyük formatda nəşri təmin edilmişdir. Qəzetin 50 illik yubileyində "Şərəf nişanı" ordeni ilə təltif olunması həmin dövrdə Azərbaycana rəhbərlik edən görkəmli dövlət xadiminin mətbuata böyük qayğısının təzahürü idi. Həmin dövrdə qəzet Azərbaycançılıq ideologiyasına, milli məfkurəyə xidmət edən yazılarla çıxış etmiş, cəmiyyətdəki nöqsanlara qarşı cəsarətlə mübarizə aparmışdır.






XX əsrin 90-cı illərinin əvvəllərində "Şərq qapısı" qəzeti müstəqilliyimizin əldə olunmasına və dövlətçiliyimizin möhkəmləndirilməsinə öz layiqli töhfələrini vermişdir. Sovetlər Birliyində nəşr olunan ilk müstəqil mətbuat orqanı kimi tarixə düşmüş, 1990-cı il 20 yanvar tarixdən etibarən səkkiz nömrəsi müstəqil çıxan qəzet milli həmrəylik, demokratiya və milli müstəqillik uğrunda mübarizədə ideoloji bayraqdar funksiyasını yerinə yetirmişdir. Ümummilli lider Heydər Əliyevin "Şərq qapısı" qəzetinin 26 iyul 1990-cı il tarixli nömrəsində dərc olunan, ulu öndərin Vətənə qayıtdıqdan sonra Azərbaycan mətbuatında dərc olunmuş ilk orijinal müsahibəsi də qəzetin fəaliyyət tarixində şanlı səhifəni təşkil edir. Ümumiyyətlə, qəzetin Azərbaycanın müstəqilliyi dövründə nəşri mərhələsi dahi şəxsiyyətə olan böyük xalq sevgisini, onun tarixi qayıdış zərurətini bir daha təsdiqləyir. Qəzet muxtar respublikamızda fəaliyyət göstərən görkəmli dövlət xadiminin müstəqilliyimizin bərpası və möhkəmləndirilməsi yolunda həyata keçirdiyi tədbirlərin fəal təbliğatçısı olmuşdur. 1990-1993-cü illərdə muxtar respublikanın xilas olunması istiqamətində həyata keçirilən tədbirlər, qəbul edilən qərarlar, beynəlxalq səviyyəli danışıqlar burada dolğun əks etdirilmişdir. Bu dövrdə ulu öndərimiz qəzetin fəaliyyəti ilə yaxından maraqlanmış, çətin şəraitdə belə, onun nəşr olunmasını təmin etmişdir. Dahi şəxsiyyətin bu mətbu orqan haqqında söylədiyi fikirlər bütünlükdə milli mətbuata, jurnalistikaya verilən yüksək dəyərdir: ***"Şərq qapısı" qəzeti öz səhifələrində muxtar respublikanın ictimai-siyasi, iqtisadi və mədəni həyatını, əhalisinin qayğı, istək və arzularını dolğun əks etdirməklə oxucularının rəğbətini qazanmışdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra "Şərq qapısı" qəzetinin kollektivi öz fəaliyyətində əsaslı dönüş yaratmış, ölkəmizdə gedən yeni cəmiyyət quruculuğu və demokratik dəyişikliklərin həyata keçirilməsi prosesinə fəal qoşulmuşdur. Əminəm ki, "Şərq qapısı" qəzeti Azərbaycanın azad və demokratik mətbuat sistemində layiqli yer tutaraq dövlətçiliyimizin möhkəmləndirilməsi yolunda bütün qüvvələrini səfərbər etmək, hər bir oxucuda müstəqil Azərbaycanın sabahına inam yaratmaq üçün var gücünü sərf edəcəkdir".***

"Şərq qapısı" qəzeti müxtəlif dövrlərdə mövcud olan siyasi-ideoloji maneələrə baxmayaraq, fasiləsiz nəşr olunmuş, muxtar respublikanın mətbu salnaməsinə çevrilmişdir. Bir neçə nəsil üçün siyasi-ədəbi, mənəvi məktəb rolu oynayan qəzet Naxçıvanda jurnalist kadrların yetişməsində mühüm rol oynamış, ictimai fikrin inkişafına xidmət etmişdir. Belə ki, bu yaradıcılıq məktəbinin yetirmələri olan ziyalılarımız sonralar Azərbaycan miqyasında, hətta daha geniş dairədə tanınıb məşhurlaşmış, elmi-ədəbi nüfuz qazanmışlar. Təsadüfi deyil ki, "Şərq qapısı"nın nəşri tarixi, onun Naxçıvanda ədəbi mühitin formalaşmasındakı rolu elmi- tədqiqat obyektinə çevrilmiş, 2010-cu ildə qəzetin fəaliyyəti ilə bağlı yeni qiymətli elmi faktlarla zəngin "Şərq qapısı" qəzeti və Naxçıvanda ədəbi mühit" monoqrafiyası işıq üzü görmüşdür. Filologiya üzrə fəlsəfə doktoru Surə Seyidin digər bir kitabı – "Naxçıvanda mətbuat tarixi" isə Almaniyanın Lambert Akademik Nəşriyyat Evində ingilis dilində nəşr olunmuşdur.

Bu mətbu orqan son illərdə Naxçıvanın dünyada təbliği və tanıdılması, diyarımızla bağlı düzgün ictimai rəyin formalaşması istiqamətində də əhəmiyyətli işlər görmüşdür. Dünyanın tanınmış ictimai xadimlərinin, jurnalistlərin dünyanın nüfuzlu mətbuat orqanlarında qədim diyarımıza səfərlərindən sonra çap etdirdikləri yazıların, qəzet əməkdaşlarının onlarla müsahibələrinin bir qismi toplanaraq 2016-cı ildə "Naxçıvan dünya mətbuatında" kitabı şəklində çap olunmuşdur.

Son 30 ilə yaxın bir dövr ərzində muxtar respublikada digər sahələr kimi, mətbuat da yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. 1993-cü ildən yenidən siyasi rəhbərliyə qayıdan ümummilli lider Heydər Əliyevin milli jurnalistikanın inkişafına göstərdiyi qayğı, bu siyasi kursun layiqli davamçısı Prezident cənab İlham Əliyevin kütləvi informasiya vasitələrinin inkişafına misilsiz dəstəyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi ilə mətbuatın tərəqqisinə yönəldilmiş irimiqyaslı tədbirlər "Şərq qapısı" qəzetinin də inkişafına mühüm təkan vermişdir. Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" 2000-ci il 29 mart tarixli Sərəncamından sonra qəzetin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Milli mətbuatımızın 135 illik yubileyində – 2010-cu il iyulun 22-də "Şərq qapısı" qəzeti redaksiyası və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni redaksiya-nəşriyyat kompleksinin istifadəyə verilməsindən sonra qəzetin rəngli nəşrinə başlanılmışdır. Muxtar respublikada mətbuatın inkişafı ilə paralel olaraq yüksək nəşriyyat-poliqrafiya mədəniyyəti də formalaşmışdır. 2018-ci ildə dövlət teleradiosuna, "Şərq qapısı", şəhər və rayon qəzetlərinə, Televiziya və Radio Şurasına ümumi dəyəri 250 min manatdan artıq olan müxtəlif avadanlıqlar alınmış, sonrakı dövrdə də teleradio və qəzetlərin maddi-texniki bazaları gücləndirilmişdir.

Bu gün "Şərq qapısı" qəzeti redaksiyasında istər jurnalist peşəkarlığı, istərsə poliqrafik keyfiyyət baxımından müasir tələblərə cavab verəcək, dünya qəzetçilik arenasına çıxa biləcək bir qəzetin nəşri üçün müasir iş şəraiti yaradılmışdır. 2012-ci ildə *www.serqqapisi.az* saytı vasitəsilə qəzet dünyanın Naxçıvanla bağlı informasiya tələbatını ödəməyə başlamış, ötən il qəzetin internet saytı tamamilə yenilənmişdir. Qlobal informasiya məkanına bu çıxış imkanı bu gün Naxçıvanla bağlı dəqiq informasiyanın dünyaya çatdırılmasında mühüm rol oynayır. Qəzet daim dövlətin diqqət və qayğısı ilə əhatə olunmuş, 75, 80, 85, 90 illik yubileyləri qeyd edilmişdir. 2011-ci ildə "Şərq qapısı"nın 90 illik yubileyində qəzet Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı ilə təltif edilmiş, bir əməkdaş mənzillə təmin olunmuşdur. 2011-ci ildə "Şərq qapısı" qəzetinin 90 illiyi münasibətilə kollektivlə görüşündə Ali Məclisin Sədri demişdir: ***"Şərq qapısı" oxucuların, cəmiyyətin maraqlarına xidmət göstərən materialların verilməsini davam etdirməli, əhalinin maarifləndirilməsi və məlumatlandırılması işində fəallıq göstərməlidir. Qəzet çalışıb ona nail olmalıdır ki, hər bir vətəndaşımızda, gənclərimizdə vətənpərvərlik, yurd sevgisi hissləri və milli duyğular güclənsin, milli dəyərlər, adət-ənənələr qorunsun, xalq yaradıcılığının, milli mədəniyyətin təbliğinə diqqət artırılsın. Muxtar respublikanın bütün yaşayış məntəqələrinin, eyni zamanda ucqar dağ və sərhəd kəndlərinin həyatı da qəzet səhifələrində obyektiv əksini tapmalı, zəngin mədəniyyətimiz və qədim tariximizlə bağlı materiallar hazırlanmalıdır".***

"Şərq qapısı" qəzeti bu ideyanı rəhbər tutaraq, zəngin tarixi ənənələri inkişaf etdirərək qoca Şərqin qapısında dahi öndər Heydər Əliyev ideyalarına sədaqət üzərində qurulmuş siyasətin bu qədim diyarın müasir inkişaf dinamikasını təbliğ etməkdədir.

"Şərq qapısı" qəzetinin nəşri tarixinə və bu gününə, ümumilikdə, Naxçıvanda jurnalistikanın inkişafının əsas tərkib hissəsi kimi nəzər salınmalıdır. Bu gün muxtar respublikada məqsədyönlü media siyasətinin, kütləvi informasiya vasitələrinin inkişafına hərtərəfli dövlət qayğısının nəticəsidir ki, bir əsrə yaxın tarixə malik bir qəzetlə yanaşı, Naxçıvanda Universitet Televiziyası və "Nuhçıxan" radiosu da daxil olmaqla, 3 televiziya, 3 radio, şəhər və rayon qəzetləri, ali təhsil və elm müəssisələrinin qəzet və jurnalları, "Nuhçıxan" İnformasiya Agentliyi, "Naxçıvan xəbərləri" saytı, Naxçıvan Mətbuat Şurası, Televiziya və Radio Şurası, 400-ə yaxın jurnalist fəaliyyət göstərir. Ali Məclis Sədrinin xüsusi qayğı və təşəbbüsü ilə muxtar respublikada 2001-ci ildən etibarən jurnalistika ixtisası üzrə kadr hazırlığı aparılır.

Ali Məclis Sədrinin 2019-cu il 19 sentyabr tarixli Fərmanı ilə Ali Məclisin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması isə bu sahəyə dövlət qayğısının növbəti ifadəsi, informasiya idarəçiliyinin düzgün tənzimlənməsi istiqamətində mühüm addım olmaqla, Naxçıvanda medianın inkişafında yeni mərhələnin əsasını qoydu. Ali Məclis Sədrinin Sərəncamı ilə Televiziya və Radio Verilişləri Redaksiyası fondun tabeliyinə verildikdən sonra kadr islahatı, struktur dəyişikliyi aparılması muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafı, peşəkarlığın yüksəldilməsi istiqamətində öz bəhrəsini verməkdədir. Fondun Azərbaycan milli mətbuatının 145 illiyi münasibətilə keçirdiyi, bu günlərdə yekunlaşacaq yaradıcılıq müsabiqəsi də müxtəlif aktual mövzu və ideyaların ərsəyə gəlməsinə, jurnalistika sahəsində yaradıcı gənc istedadların üzə çıxarılmasına, güclü potensialın formalaşmasına töhfə verəcək. Heç şübhəsiz ki, qurum gələcəkdə də muxtar respublikada fikir, söz və məlumat azadlığını, plüralizmi inkişaf etdirmək kimi ali məqsədlərə xidmət edəcək. Naxçıvan Mətbuat Şurasının ötən ildən etibarən Ümumdünya Mətbuat Şuraları Assosiasiyasına üzv olması isə Naxçıvan mediasının beynəlxalq müstəviyə çıxarılma səviyyəsini təsdiqləyir, eyni zamanda bu sahədə əlaqələrin genişlənməsinə də zəmin yaradır.

Ölkəmiz bütünlükdə ziyalılıq bayramı, millilik, dünyəvilik, tərəqqipərvərlik rəmzi olan milli mətbuatımızın 145 illiyini təntənə ilə qeyd edir. Dövlət başçısının milli mətbuatın 145 illik yubileyi ilə bağlı imzaladığı tarixi sərəncam kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısı olmaqla, milli mətbuatın cəmiyyətdəki, dövlətçilik tariximizdəki mühüm roluna siyasi qiymət verməklə yanaşı, jurnalistlər qarşısında mühüm vəzifələr də qoyur: ***"...Kütləvi informasiya vasitələri də ölkəmizdə həyata keçirilən köklü islahatlardan kənarda qalmamalı, kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi hazırkı dövrdə qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğunlaşmalı, cəmiyyətimizin obyektiv və peşəkar şəkildə məlumatlandırılması sahəsində öz səylərini daha da gücləndirməlidir. Modernləşmə, rasionallıq, obyektivlik, kreativlik, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi medianın inkişafını şərtləndirən başlıca amillər olmalıdır".***

***Bir əsrə yaxın şərəfli inkişaf yolu keçən, sağlam məfkurəli ideyası ilə doğma Naxçıvanımızın real salnaməsinə çevrilən muxtar respublika mətbuatı da bu vəzifələri, Ali Məclis Sədrinin mətbuat işçiləri ilə keçirdiyi görüşlər zamanı verdiyi dəyərli tövsiyə və tapşırıqları fəaliyyət prinsipləri kimi rəhbər tutaraq muxtar respublikamızın tarixinin salnaməléşdirilməsi üçün bundan sonra da var-qüvvəsini əsirgəməyəcək. Bir sözlə, Şərqin qapısı Naxçıvanda fəaliyyət göstərən qocaman, həm də zamanın nəbzini tutmağı bacaran mətbuatımız əsrlərarası körpü, keçmişdən gələcəyə açılan möhtəşəm bir mənəviyyat qapısı olacaq.***

**Mehriban SULTAN**
*Naxçıvan Muxtar Respublikasının*
*Əməkdar jurnalisti*

## Onlayn elmi konfrans keçirilib



***AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunda görkəmli kimyaçı-alim, Əməkdar elm xadimi, akademik Həbibulla Şahtaxtinskinin anadan olmasının 120 illiyinə həsr olunmuş onlayn elmi konfrans keçirilib.***

Tədbiri institutun elmi katibi, kimya üzrə fəlsəfə doktoru, dosent Əhməd Qarayev açaraq alimin həyat və fəaliyyətindən, kimya elminin inkişafındakı xidmətlərindən danışıb. Bildirib ki, Həbibulla Şahtaxtinskinin elmi fəaliyyəti analitik kimya və qeyri-üzvi maddələrin texnologiyası sahələrini əhatə edir.

Qeyd olunub ki, Həbibulla Şahtaxtinskinin apardığı elmi və praktik araşdırmaların nəticələri alimin "Zəylik yatağı süxurlarından alüminium duzlarının alınması", "Alunitin kompleks emalından qalliumun alınması", "Maqnezium və kalsiumun arsenat metodu ilə təyini", "Miqdari kimyəvi analiz" və digər əsərlərində yer alıb. Yeddi monoqrafiya və dərsliyin, 380 elmi əsərin müəllifi olan akademikin rəhbərliyi ilə 3 elmlər doktoru, 35 fəlsəfə doktoru hazırlanıb.

Daha sonra institutun böyük elmi işçisi, kimya üzrə fəlsəfə doktoru, dosent Aliyə Rzayeva "Akademik Həbibulla Şahtaxtinskinin həyatı", Əhməd Qarayev "Həbibulla Şahtaxtinskinin analitik və qeyri-üzvi kimya texnologiyasının nəzəri və təcrübi problemlərinin həlli yolları sahəsində yaradıcılığı" və Mineral xammalın kimyası və texnologiyası laboratoriyasının rəhbəri, kimya üzrə fəlsəfə doktoru, dosent Qorxmaz Hüseynov "Akademik Həbibulla Şahtaxtinskinin "Miqdari kimyəvi analiz" kitabının əhəmiyyəti haqqında" mövzularda məruzələrlə çıxış ediblər.

Tədbirin sonunda institutun direktor müavini, kimya elmləri doktoru Bayram Rzayev çıxış edərək görkəmli alimlə bağlı xatirələrini bölüşüb.

**AMEA Naxçıvan Bölməsinin**
**Beynəlxalq əlaqələr və informasiya şöbəsi**

## Növbəti onlayn ekskursiya Cəlil Məmmədquluzadənin ev-muzeyində olub

***Görkəmli dramaturq Cəlil Məmmədquluzadənin Naxçıvan şəhərində yerləşən ev-muzeyində onlayn ekskursiya keçirilib.***



Ekskursiyanın əvvəlində bələdçi Nəsrin Abdullayeva muzeyin yaradılma tarixi haqqında məlumat verərək bildirib ki, Azərbaycanın görkəmli dramaturqu və nasiri Cəlil Məmmədquluzadənin xatirəsini əbədiləşdirmək məqsədilə Naxçıvan şəhərində ev-muzeyinin yaradılması haqqında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1998-ci il 19 iyun tarixli Sərəncam imzalamışdır. Ulu öndərin 1999-cu ildə muzeyin açılış mərasimində iştirak etməsi əlamətdar hadisələrdən biridir.

Qeyd olunub ki, dahi şəxsiyyət Heydər Əliyev böyük yazıçı və dramaturq Cəlil Məmmədquluzadənin yaradıcılığına və şəxsiyyətinə, onun əsərlərinin tədqiqi və nəşrinə, eləcə də adının əbədiləşdirilməsinə həmişə böyük diqqət və qayğı ilə yanaşıb. Məhz ümummilli liderin hakimiyyəti illərində yazıçı haqqında yeni və sanballı tədqiqat əsərləri kütləvi şəkildə nəşr olunub, xatirəsinin əbədiləşdirilməsi üçün böyük işlər həyata keçirilib, yubileyləri təntənəli şəkildə qeyd edilib. Redaktoru olduğu "Molla Nəsrəddin" jurnalının faksimilesinin nəşr edilməsi böyük ədəbi hadisə olmaqla, ictimaiyyət tərəfindən mirzəcəlilşünaslığa göstərilən diqqət və qayğı kimi dəyərləndirilib.

Bildirilib ki, Cəlil Məmmədquluzadənin ev-muzeyi iki ekspozisiya zalı və foyedən ibarətdir. Muzeyin fondunda 2500-ə yaxın eksponat vardır ki, onlardan 300-dən çoxu ekspozisiya zallarında nümayiş olunur. Cəlil Məmmədquluzadəyə və onun ailəsinə məxsus şəxsi, məişət əşyaları, o cümlədən yazıçının əsərləri, "Molla Nəsrəddin" jurnalının müxtəlif illərə aid nüsxələri, ədibin müasirləri və tədqiqatçılarının əsərləri, rəsm əsərləri və sair muzeyin qiymətli eksponatları sırasındadır.

Muzeyin ekspozisiya zalları haqqında məlumat verən bələdçi nəzərə çatdırıb ki, böyük yazıçı-dramaturqun irsinə dövlətimiz və xalqımız daim ehtiramla yanaşır.

**Naxçıvan Muxtar Respublikası**
**Mədəniyyət Nazirliyinin**
**mətbuat xidməti**

***Qədim diyarımız Naxçıvan ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində tapılmış materiallara əsasən demək mümkündür ki, Eneolit və ondan sonrakı dövrlərdə də diyarımızda yeməklər hazırlamaq üçün ayrıca yerlər olmuşdur. Arxeoloji tədqiqatlar sübut edir ki, daşdan keramikaya, saxsı çanağa, sonra isə metala keçilməsi məişətdə böyük dəyişikliklərə gətirib çıxarmışdır. Bununla belə, qab-qacaqların, məişət alətlərinin bir çoxu bu gün də həyatımızda yerini qorumaqdadır. Aparılan arxeoloji qazıntılar nəticəsində bir çox ocaqlar, təndirlər də meydana çıxıb. Keçmişdə təndiri, hətta evlərin içində quraşdırardılar ki, qışda ondan təkcə çörəkbişirmə məqsədilə deyil, həm də otaqları qızdırmaq üçün istifadə etsinlər.***

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

## Təndirqoyma xalqımızın zəngin etnoqrafik ənənələrini əks etdirir





Tarixi mənbələrdə "təndir" sözünün qədim türk xalqlarına (şumerlərə) məxsus olduğu qeyd edilir. Təndirin tarixi ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bir sıra müəlliflərə görə, döymə üsulu ilə düzəldilən təndirlər qədim tarixə malik olsalar da, onlardan çörək bişirilmədə istifadə edilməmişdir. Bəzi dini mənbələrdə isə Həvva nənənin daşdan təndiri olduğunu, onun Nuh Peyğəmbərə qaldığı deyilir. Müqəddəs kitabımız "Qurani-Kərim"in "Hud" surəsinin 40-cı ayəsindəki "Təndir qaynadı" ifadəsi ilə adı çəkilir. Qədim vaxtlarda gün tutulması olanda, zəlzələ baş verəndə insanlar təndirin yanına qaçıblar. Onlar təndir başında hifz olunacaqlarına, başlarına bir iş gəlməyəcəyinə inanıblar. Hazırda istifadə edilən təndirlərin keramikaya keçidlə əlaqəli olduğu fikri irəli sürülməkdədir. Tarix boyunca Azərbaycanda çörəkbişirmə vasitələri, əsasən, ocaq, gil və çuqun saclar, gil tavalar olub. Onların arasında təndirlər daha geniş yayılıb. Yaşı minilliklərlə ölçülən dulusçuluq və təndirqoyma mədəniyyəti özündə xalqımızın zəngin mətbəx ənənələrini əks etdirir. Bu xalq sənətkarlığı nümunəsini günümüzdə yaşadanlardan biri, Sədərək rayon Sədərək kənd sakini Gültəkin Mahmudova öz halal ruzisini təndir düzətməklə qazanır, bu işi anasından öyrənib.

Onun dedikləri:

– Naxçıvanda əvvəllər yeraltı təndirlər qoyulub ki, həmin təndirlərdən bəziləri bu günə kimi də qalmaqdadır. Zamanla yerüstü təndirlərdən istifadə olunmağa başlanıb. Təndir qoymaq ağır zəhmət tələb edir. Ancaq çəkdiyimiz zəhmətin bəhrəsini hər vaxt görürük. Əsas odur ki, halal zəhmətimlə ailəmi dolandırıram.

Müsahibim deyir ki, təndirin qurulması üçün əsas xammal gilli torpaqdan yoğurulmuş palçıqdır. Təndir qoymaq, düzəltmək üçün hazırlanacaq torpaq təmiz hesab edilən yerdən götürülməlidir. Onun möhkəm olması üçün yoğurulan palçığın içərisinə keçi qəzili də qatılır. Ətraf sahələrdən yığdığımız gili və çay yatağından gətirdiyimiz qumu su ilə isladıb, başlayırıq onu ayağımızla qarışdırmağa. Gil qarışığı hazır olandan sonra təndir qurulur. Sonra onun rənginin bir qədər ağarmasını gözləyir, ətrafına odun qoyub yandırırıq. Bundan sonra 15 gün təndirin qurumasını gözləmək lazımdır. Hava isti olanda, yəni yay vaxtı təndir, təqribən, 2 saata hazır olur. Ancaq digər fəsillərdə havalar soyuq keçdiyindən, bəzən də əlverişli olmadığından bu müddət uzanır. Təndirlər əvvəlki dövrlərdə, yəni dədə-baba zamanında necə idisə, indi də eyni qaydada hazırlanır. Alt tərəfində hava çəkmək üçün kiçik bir dəlik də açılır. Ona "külfə" və ya "külüfürən" deyilir. Onun alt hissəsi 1,1 metr ağız hissəsi 50 sm, hündürlüyü 1 metr, qalınlığı isə 5 santimetrdir. Həmsöhbətim bildirdi ki, əsas vacib məsələ qoyulduqdan sonra təndiri yağışdan, sudan, nəmdən qorumaqdır. Yoxsa palçıqdan hazırlanan təndir tez sıradan çıxar. Təndiri alandan sonra isə onu xüsusi palçıq şirəsi ilə üzləyir, ya da ətrafını kərpiclə hörürlər. Təndiri qorumaq, həm də burada çörək bişirmək hər fəsildə mümkün olsun deyə, təndiri çardaqda qoymaq daha məsləhətlidir.

Gültəkin xanım onu da deyir ki, bir təndirin qiyməti ölçüsünə görə dəyişir. Ölçüsü isə sifarişə uyğun götürülür. Standart ölçülər bir az əvvəl dediyim ölçülərdir, amma müştərilərin bəziləri böyük, digərləri isə kiçik təndir istəyir. Məsələn, içərisində lavaş bişirmək üçün hazırlanan təndirlər digərlərindən bir qədər böyük ölçüdə olur. Kiçik təndirlər 10 çörək tutur. Həmçinin 15, 20 çörək tutan təndirlər də var. Daha çox Şərur rayonundan gəlib təndir alırlar. Hər kəs təndir çörəyinin dadını biləndən sonra istəyir ki, öz həyətində mütləq yerüstü təndiri olsun.

Gültəkin Mahmudova təndirdə çörək bişirməyin qaydasından da söhbət açır:

– Təndirə od salınanda, adətən, xəmir kündələnir ki, köz düşənəcən kündə də bişirilməyə hazır olsun. Təndir qalanandan sonra əvvəlcə adəti üzrə qaralır, sonra isə aşağıdan yuxarıya doğru ağarmağa başlayır. Bu zaman təndir həddindən artıq isti və qızmar olduğundan çörəyi tez yapmırlar, bir az gözləməlisən, yoxsa çörək küt gedər. Bunun qarşısını almaq üçün həm də kündəni yastılayıb yapmağa hazırlayanda onun arxa hissəsinə duzlu su vurarlar. Bu, kündənin təndirin badına yaxşı yapışmasına səbəb olur. Təndirdə bişən çörəyin öz dadı, öz ləzzəti var. Təndir çörəyi bişirilən məhəllənin yanından ötüb keçən hər kəs onun ətrini duyur. Adətə görə, təndirdən çıxan ilk çörəyi uşaqlara, evin qonağına vermək xeyir-bərəkət, ruzi gətirər.

Onu da qeyd edək ki, ta qədimdən milli mətbəximizdə təndirdən təkcə çörək bişirmək məqsədilə istifadə olunmur, onun vasitəsilə həm də müxtəlif yeməklər hazırlanır. Təndir çörəyi kimi təndir kababı, təndir külləməsi, təndir qovurması da öz dadı və ləzzəti ilə məşhurdur. Müasir dövrdə cürbəcür metal qablar, elektrik mətbəx əşyaları olsa belə, təndirdə bişən çörəyin, müxtəlif növ kətələrin, şirin çörəklərin, kababın, yeməklərin dadını heç bir avadanlıqda bişirilən yemək vermir. Çörəkbişirmə sahəsində müxtəlif texnologiyalardan istifadə olunsa da, təndir çörəyinin ətri və dad-tamı bir başqadır...

**Ramiyyə ƏKBƏROVA**

## Məzun rəssamların sərgisi

***Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində məzun rəssamların sərgisi təşkil edilib.***



Rəngkarlıq və təsviri incəsənət müəllimliyi ixtisası tələbələrinin buraxılış işlərinin üstünlük təşkil etdiyi sərgini giriş sözü ilə universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov açıb. Qeyd edilib ki, fakültədə ustad dərsləri, əlamətdar tarixi günlərlə bağlı onlayn konsertlər keçirilməsi müntəzəm şəkil alıb. Prorektor məzun tələbələri təbrik edib və əsərlərinin gələcəkdə daha böyük sərgilərdə nümayiş olunmasını arzulayıb.

Təsviri incəsənət kafedrasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar rəssam Həbibə Allahverdiyeva bildirib ki, ümumilikdə, 45 rəsm əsərinin nümayiş olunduğu sərgidə məzun tələbələrin buraxılış işləri yer alıb. Vurğulanıb ki, sərgiyə Rəngkarlıq ixtisasının tələbələri Arzu Tarverdiyeva 15, Ceyran Talıbova isə 12 əsərlə qatılıb. Diqqətə çatdırılıb ki, universitetdə adlı təqaüd alan hər iki tələbə artıq Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinə üzv qəbul olunub.

Xalq rəssamı Hüseynqulu Əliyev müəllimi olduğu hər iki tələbəni təbrik edib və onların yaradıcılıq qabiliyyətlərini qiymətləndirib.

Fakültənin dekanı, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılov "Gənc rəssamlar" klubunun fəaliyyətindən danışıb və gələcək perspektivləri dəyərləndirib, məzun tələbələrin hər birinə uğurlar arzulayıb.

Sonra sərgiyə baxış olub.

**Səadət ƏLİYEVA**

## Birinciliyin qalibləri mükafatlandırılıb



***Naxçıvan Əlillərin Bərpa Mərkəzində 18 yaşadək sağlamlıq imkanları məhdud uşaqlar arasında stolüstü tennis üzrə muxtar respublika birinciliyi keçirilib.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Paralimpiya Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən birincilikdə, ümumilikdə, 11 sağlamlıq imkanları məhdud uşaq mübarizə aparıb. Birinciliyin keçirilməsində məqsəd bu kateqoriyadan olan uşaqlar arasında bədən tərbiyəsi və idmanın kütləviliyinin təmin edilməsi, asudə vaxtlarının səmərəli keçirilməsi, o cümlədən stolüstü tennis idman növünün inkişaf etdirilməsidir.

Yarışın yekun nəticəsinə əsasən Allahverən Səfərov qalib adını qazanıb. Rafail Yusifov ikinci, Əkrəm Kərimli isə üçüncü olub.

Qaliblərə diplom və hədiyyələr, digər iştirakçılara fəxri fərmanlar təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** *İşəgötürən tərəfindən əmək müqaviləsinin ləğv edilməsinin əsasları hansılardır?*

**Cavab:** Əmək müqaviləsi işəgötürən tərəfindən müəssisənin ləğv edilməsi, işçilərin sayının və ya ştatlarının ixtisar edilməsi, peşəkarlıq səviyyəsinin, ixtisasının (peşəsinin) kifayət dərəcədə olmadığına görə işçinin tutduğu vəzifəyə uyğun gəlmədiyi barədə səlahiyyətli orqan tərəfindən müvafiq qərar qəbul edilməsi, işçinin əmək funksiyasını və ya əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirməməsi, əmək vəzifələrini kobud şəkildə pozması, sınaq müddəti ərzində özünü doğrultmaması, dövlət büdcəsindən maliyyələşən müəssisənin işçisi çalışmanın yaş həddinə çatması əsasları ilə ləğv edilə bilər.

**Naxçıvan Muxtar Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkilinin**
**(Ombudsmanın) mətbuat xidməti**


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Pərviz Hacılı

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 506